"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

UOT 330.31/33;330,567,330,12 39.58.01

**KÖNÜL ƏLİYEVA**
Naxçıvan Dövlət Universiteti
konul.aliyevna@mail.ru

# İQTİSADİ ARTIM VƏ ONUN MÜASİR MODELLƏRİ

*Məqalədə iqtisadi artımın müasir şəraitdə məzmunu açıqlanır. Eyni zamanda müəllif iqtisadi artımın əsas modellərini təhlil edir və xüsusiyyətlərini qeyd edir. Məqalədə nəzəri yanaşmaların müqayisəli təhlil aparılır və iqtisadi artım prosesinin növləri təsnifatlaşdırılır.Məqlənin yekununda müəllif aparılmış təhlillərin ümumi nəticəsini əks edir.*

**Açar sözlər:** *iqtisadi artım, məzmun, meyllər, modellər, dövlət tənzimləməsi.*

İqtisadi artım milli iqtisadiyyatın elə bir inkişafıdır ki, burada real milli gəlir və real ümumi daxili məhsul cəmiyyətin tələbatlarının təminat mənbəyi kimi çıxış edir. İqtisadi artım dedikdə adətən ümummilli istehsalın həcminin qısamüddətli deyil, uzunmüddətli artım təmayülü, ümumilli məhsulun və onun istehsal amilinin keyfiyyətli təkmilləşdirilməsi başa düşülür.

Sözün həqiqi mənasında iqtisadi artım istehsal effektlərində, onun bir sıra xüsusiyyətlərində (məhsuldarlığında) kəmiyyət və keyfiyyət dəyişikliklərində özünü büruzə verir.

Eyni zamanda iqtisadi artım öz ifadəsini ümumilli daxili məhsulun ehtimal edilən və gerçək həcmində, dövlətin və millətin iqtisadi qüvvəsinin yüksəlməsində tapır. Sözügedən yüksəlişi bir-biri ilə qarşılıqlı əlaqədə olan iki əlamətə əsasən ölçmək olar: müəyyən dövr ərzində real ÜDM-in artmasında və yaxud adambaşına düşən Ümumi Milli Məhsulun artmasına əsasən.

**İqtisadi artımım məzmunu və növləri**

Belə bir zəmində iqtisadi artımı əks etdirən statistik əlamət Ümumi Milli Məhsulun illik faizlərlə artım tempi hesab olunur. Müvafiq olaraq qeyd etmək yerinə düşərdi ki, iqtisadi artımı əks etdirən statistik əlamət Ümumi Milli Məhsulun faizlərlə illik artımı hesab olunur.

İqtisadi artım problemi indiki dövrdə demək olar ki, iqtisadi diskussiya və müzakirələrdə çox böyük yer tutur. Diskussiya və müzakirələrdə müxtəlif millət və xalqların, onların hökumətlərinin aparıcı mütəxəssisləri və nümayəndələri iştirak edirlər. Məsələ burasındadır ki, real istehsalın həcminin artması imkan yaradır ki, hər hansı bir səviyyədə istənilən təsərrüfat sisteminin rastlaşdığı problem həll edilsin: resurs məhdudiyyətləri və sonsuz insan tələbatları şəraitinin yaratdığı problemlərin həllindən söhbət gedir. Mövcud nağd resursların hüdudları genişləndirilərək iqtisadi artım eyni zamanda cari tələbatların artma-

**Məqalə tarixçəsi:**
Göndərilib: 17.02.2019, qəbul edilib: 05.03.2019

sı və yeni investisiya qoyuluşların həyata keçirilməsi vəzifələrin həlli edilməsinə imkan yaradır.

Burada xüsusi olaraq qeyd etmək lazımdır ki, iqtisadi artımın üç tipi mövcuddur: intensiv, ekstensiv və qarışıq. Adı çəkilən tiplərin məzmunu şəkil 1.-də öz əksini tapmışdır.

| **İqtisadi artım tipləri** | | |
|---|---|---|
| Ekstensiv | İntensiv | Qarışıq (real) |
| Əvvəlki texnoloji əsaslar üzrə istehsal gücləri genişlənir | İstehsal potensialının artmasına hesabına texnika və texnologiyanın təkmilləşdirilməsi nail olunur | İstehsalın inkişaf etdirilməsinə istehsal amillərinin kəmiyyətinin artması, texnika və texnologiyanın təkmilləşdirilməsi hesabına nail olunur |

| üstünlük | çatışmazlıq | Xüsusiyyətləri | Xüsusiyyərtləri |
|---|---|---|---|
| 1.İqtisadi artımın təmin edilməsinin sadələyi;<br>2. təbii resursların sürətlə mənimsənilməsi;<br>3. nisbətən daha yüksək məşğulluq səviyyəsinin təmin olunması. | 1.texniki durğunluq yaranır;<br>2. istehsalda staqnasiyanın yaranması ehtimalı;<br>3. İstehsalın inkişafının məsrəfliliyinin artması | 1. İstehsalın elm tutumluğunun yüksəlməsi;<br>2.elmi-texniki informasiyadan geniş istifadə edilməsi imkanları;<br>3.İqtisadi artımın resurs məhdudiyyətlərindən irəli gələn əngəllərin aradan qalxması | Qarışıq tip özündə real gerçəklikdə iqtisadi inkişafı əks etdirir;<br>İstehsal güclərinin genişlənməsi, istehsal vasitələrinin keyfiyyət xüsusiyyətlərinin yaxşılaşması ilə müşaiyət olunur. |

**Şəkil 1. İqtisadi artım tiplərin təsnifatı**

Mənbə: [1, s.155 ] əsasında müəllif tərəfindən tərtib olunub.

İqtisadi artımın ekstensiv növünə çox saylı istehsal amilləri vasitəsi ilə nail olunur: əmək, pul, özünün əvvəlki əsasları saxlanılmaqla ərazilər. Bu iqtisadi artım növünə işçi qüvvəsinin kəmiyyətinin artırılması, işçi qüvvəsinin tərkibinin ixtisas hazırlığı səviyyəsinin yüksəldilməsi, avadanlıqların artması ilə nail olunur. Bunun nəticəsində isə bir işçiyə düşən məhsulun həcmi əvvəlki kimi qalır.

Ekstensiv böyümənin öz müsbət xüsusiyyətləri vardır. Burada daha asan yol ilə iqtisadi artım tempinə nail olunur. Müvafiq olaraq təbii resurslar mənimsənilir, işsizlik səviyyəsi aşağı düşür, məşğulluq təmin olunur. Lakin eyni zamanda istehsal artımın bu yolunun minusları da vardır. Texniki durğunluq müşahidə olunur. İstehsal edilən məhsulun kəmiyyətinin yüksəlməsi texniki-iqtisadi inkişafla müşaiyət olunmayacaqdır. Eyni zamanda istehsal həcminin artması məsrəfli xarakter daşıyır. Ən yaxşı halda iqtisadi artım işçilərin və istehsal vasitələrinin kəmiyyətinin artmasına proporsionaldır.

*Təkrar istehsalın ekstensiv genişləndirilməsi* dövlətin böyük həcmlərdə təbii və əmək resurslarının olmasından xəbər verir, dövlət həmin resurslar hesabına istehsalın həcmini genişləndirir.

Təbii resursların tükənməsi səbəbindən xam mal və yanacağın hər tonu üçün getdikcə daha çox əmək və istehsal vasitələri sərf olunmaqdadır. Bunun nəticəsində isə iqtisadi artım məsrəfli xarakter daşıyır.

*İqtisadi artımın intensiv növündə* istehsal edilən məhsulların həcminin genişlənməsi daha uğurlu və keyfiyyətli istehsal amillərinin tətbiq edilməsinə əsaslanır.

İstehsalın həcminin genişləndirilməsi daha mütərəqqi, aparıcı texnologiyalardan, elmi nailiyyətlərdən, resurslara daha qənaətedici texnologiyalardan istifadə edilməsinə, işçilərin ixtisas hazırlığı səviyyəsinin yüksəldilməsinə əsaslanır.

Yuxarıda qeyd edilənlər hər şeydən öncə istehsal edilən məhsulun xüsusiyyətlərinin yaxşılamasına və əmək məhsuldarlığının yüksəldilməsinə, resurslara qənaət edilməsinə və s. imkan yaradır. İqtisadi artımın intensiv tipində məhsul buraxılışının artmasının bir hissəsi istehsal amillərinin səmərəliliyinin yüksəldilməsi hesabına əldə edilir.

XX əsrin ikinci yarısından Elmi-Texniki Tərəqqi şəraitində dünyanın aparıcı dövlətlərində inkişafın üstün tipi intensiv iqtisadi artım tipi olmuşdur.

2. **İqtisadi artımın müasir modelləri**

Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı şəraitində məhsul və xidmətlər istehsalının təmin edilməsi üçün adətən 3 amildən istifadə edilməsindən bəhs edilir:

Əmək, kapital, torpaq (təbii resurslar). Burada “Y”-məcmu məhsul; “L”-əmək məsrəfləri funksiyası; “K”-kapital; “N” - təbii resurslardır:

$$Y=f\,(L,K,N) \qquad (1)$$

İqtisadi artımın müəyyən xüsusiyyətləri var. Həmin xüsusiyyətlər iqtisadi artımın mahiyyətini özündə əks etdirir və onların vasitəsi ilə ayrı-ayrı istehsal vasitələrindən istifadə edilməsinin məhsuldarlığı ölçülür.

Birincisi, iqtisadi artımın əsas amili Y/L hesab olunur-əmək məhsuldarlığı, yəni məhsul və xidmətlər istehsalı prosesində məhsul buraxılışının həcminin Y, canlı əmək məsrəflərinə olan nisbəti. Əks nisbətlər –L/Y məhsulun istehsalının əmək məsrəfli olması deməkdir.

İkincisi, məhsulun ölçüsünün istehsal prosesində kapitala olan nisbəti Y/K, bu kapitalın məhsuldarlığı, yaxud kapital verimliyi deməkdir. Əks əlamət K/Y –məhsulun kapitaltutumluğu deməkdir.

Üçüncüsü, iqtisadi artımın aktual əlaməti kimi məhsul buraxılışının təbii resurslara, ərazi, enerji və s. olan nisbətidir. Y/N –təbii resursların məhsuldarlığıdır. Əks nisbət N/Y məhsulun resurstutumluğu deməkdir.

Əsas göstəricilər Y/L, Y/K и Y/N istehsal amillərinin məhsuldarlığını müəyyənləşdirir.

Məhsul buraxılışı ilə ayrı-ayrı istehsal amilləri arasındakı qarşılıqlı əlaqə və nisbətlərlə yanaşı, istehsal amilləri arasındakı nisbətlər, onların xüsusiyyətləri də nəzərə alınır. Bəhs edilən əlamət qismində kapital məsrəfləri və əmək məsrəfləri arasındakı nisbətləri də (K/L) qeyd etmək olar.

İqtisadi artımın təhlil edilməsi üçün mütləq məhsuldarlığın xüsusiyyətinin olduqca böyük əhəmiyyəti vardır, bu göstərici istənilən amilin artımına əsasən, digər amillərin o qədər də diqqəti cəlb etmədiyi bir şəraitdə məhsul buraxılışının xüsusiyyətlərini xarakterizə etməyə imkan yaradır.

Birincisi, həmin nisbət və münasibət əlavə məhsulun izafi məhsula olan nisbətidir, yəni son məhsuldarlıq həddidir. İkincisi, əlavə məhsulun izafi məhsula olan nisbəti-kapitalın mütləq məhsuldarlığıdır. Üçüncüsü, əlavə məhsulun izafi məhsula olan nisbəti – təbii resursların mütləq məhsuldarlığı deməkdir.

Mütləq məhsuldarlığın xüsusiyyətləri (əmək, kapital və təbii resurslar) istənilən amilin məcmu məhsul buraxılışına verdiyi töhfəni özündə əks etdirir:

$$Y = \frac{\Delta Y}{\Delta L} \times L + \frac{\Delta Y}{\Delta K} \times K + \frac{\Delta Y}{\Delta N} \times N \qquad (2)$$

Beləliklə, məhsul buraxılışının ümumi həcmi istifadə edilən hər bir amilin ümumi məbləğidir, onun məhsuldarlığının son həddini özündə əks etdirir.

Eyni zamanda qeyd etmək lazımdır ki, iqtisadi artımın makroiqtisadi təhlilinin əsas alətlərindən biri istehsal funksiyasıdır. Burada məhsulun mütləq buraxılışı ilə məsrəflər arasında asılılıq öz ifadəsini tapır. Yuxarıda göstərilən bərabərlik (tənlik) (1) istehsal funksiyasıdır, burada Y milli gəliri və yaxud həmin ölkənin Ümum Milli Məhsuldur. L,K,N- milli iqtisadiyyat hüdudlarında -əmək resursları, kapital, torpaq resurslarıdır.

Ölkənin iqtisadi artımını özündə əks etdirən mühüm göstərici adambaşına düşən Ümumi Milli Məhsulun artım tempi göstəricisidir.

Ümumi Milli Məhsulun illik orta artım tempi adambaşına düşən Ümumi Milli Məhsulun artım tempindən əhəmiyyətli dərəcədə yüksəkdir. Barəsində bəhs edilən göstəricilərin orta illik artım tempi göstəricilərindəki mövcud qeyri proporsionallıq onunla əlaqələndirilə bilər ki, ölkənin qorunması, asayişin və ətraf mühitin qorunmasına və digər məqsədlər üçün çəkilən məsrəflər artmış, istifadə edilən ÜMM-in payı isə əhəmiyyətli ölçülərdə azalmışdır.

Ümumiyyətlə, belə bir qənaətə gəlmək olar ki, bazar iqtisadiyyatı şəraitində adambaşına düşən istehlakın yüksəlməsi göstəriciləri faizlərlə ifadə edilərsə əhəmiyyətli ölçülərdə həmin dövr üçün ÜMM-in yüksəlməsi həcmindən geri qalır.

Qeyd etmək lazımdır ki, iqtisadi artımın təhlili onun modelinin yaradılması ilə nəticələnir, bunsuz iqtisadi artımı və onun nəticələrini səmərəli proqnozlaşdırmaq qeyri mümkündür.

*İqtisadi artım modeli* iki mənbə əsasında yaradılmışdır- makroiqtisadi tarazlığın keynsçi modeli və neoklassik istehsal nəzəriyyəsi. Bu iki mənbə iqtisadi nəzəriyyədə iqtisadi artım probleminin araşdırılmasında iki istiqamətin formalaşmasına səbəb olmuşdur-keynsçi (son keynsçilik) və klassik (son neoklassik).

*Keynsçi iqtisadi artım modeli.* Keynsin makroiqtisadi tarazlıq nəzəriyyəsinin tənqidi araşdırılması və inkişaf etdirilməsi əsasında formalaşmışdır.

İkinci, Dünya Müharibəsindən sonra C.M.Keynsin tədqiqatçıları yeni modelin yaradılması vəzifəsinin həll edilməsini qarşılarına məqsəd qoydular.

Burada dinamik modelin ehtimal edilən bütün vəziyyətlərinin dəyərləndirilməsinin mümkün olması nəzərdə tutulurdu. Onların içərisində daha geniş yayılan model R.Harrodun (Böyük Britaniya) və E.Domarın (ABŞ) neokeynsçi modellərdir. Həmin modellər iki ehtimal üzərində qurulmuşdur: 1) dövlət gəlirinin artması kapital artımının funksiyasıdır və digər amillər (məşğulluğun yüksəlməsi, ETT-nin nailiyyətlərinin tətbiqi, istehsalın təşkilinin təkmilləşdirilməsi) kapital verimliyinə təsir göstərən amillər istisna olunur. Müvafiq olaraq qeyd etmək lazımdır ki, Harrod və Domarın modelləri bir amilə əsaslanan modellərdir. Burada gözlənilən odur ki, kapitala olan tələb bu kapital tutumluğunda milli gəlirin artım tempindən asılıdır; 2) kapital tutumluğu istehsal amillərinin nisbətlərindən asılı vəziyyətdə deyildir, ancaq istehsalın texniki şəraitinə əsaslanır.

Neokeynsçilərin fikirlərinə əsasən iqtisadi artımı və onun templərini xarakterizə edən amil investisiya artımıdır. İnvestisiyalar iqtisadi artım modelində əsas rol oynayır: onlar dövlət maaşlarının artmasına təsir göstərir-məhsuldar qüvvələrin yüksəlməsinə səbəb olur. Öz növbəsində gəlir artımı məşğulluq səviyyəsinin yüksəlməsinə səbəb olur, çünki investisiyalar istehsal güclərini artırır. Ümumiyyətlə cəmiyyətin artan istehsal qabiliyyətinin tarazlaşdırılması üçün gəlir artımı tələb olunur. Burada işsizliyin artmasına və şirkətlərin kifayət qədər yüklənməməsinə yol vermək olmaz.

Formallaşdırılmış olaraq E.Domarın modelində bərabərləşdirmə və tarazlaşdırma aşağıdakı kimi həyata keçirilir:

$$\Delta I \times \frac{1}{a} = I \times q \quad \text{, və ya} \quad \Delta\frac{I}{I} = q \times a \qquad (3)$$

Burada I —illik xalis kapitalqoyuluşudur;

$\Delta I$ —xalis kapitalın artımıdır;

$\frac{\Delta I}{I}$ — xalis kapitalın artım tempidir;

1/a – multiplikatordur, burada a-milli gəlirdə qənaət edilmiş yığımdır, yəni yığıma orta meyllik (yığımın son həddi ilə qarışdırmaq olmaz):

q-kapitalqoyuluşunun potensial orta məhsuldarlığı və ya kapital verimliliyidir.

Beləliklə, xalis investisiyaların artım tempi (kapitalqoyuluşlarının), əmək resurslarının tam məşğulluğunu və istehsal güclərinin tam yüklənməsini təmin etməsi üçün $\sigma \times \alpha$ bərabər olmalıdır və ya investisiyaların potensial orta məhsuldarlığının milli gəlirdəki yığıma vurulması tələb olunur. Məsələn əgər, $\sigma$ = 0,3 və $\alpha$ =0,2, bu zaman $\frac{\Delta I}{I}$ (investisiyaların artım tempi ) aşağıdakı kimi olmalıdır:

$$(0,3 \times 0,2) \times 100\% = 6\ \%.$$

İqtisadi artımın digər modeli - Harrod modeli - Keynsin məşhur makroiqtisadi tarazlıq şəraiti nəzəri müddəalarına əsaslanmışdır. Burada İ=S.

Harrod iki formuldan istifadə edir, onlardan biri statistik makrotarazlıq şəraitini ifadə edir, digəri - dinamik tarazlıq vəziyyətini ifadə edir. Sonucu barəsində danışarkən nəzərə almaq lazımdır ki, gerçək yığımla ehtimal edilən investisiya qoyuluşları müqayisə edilir. Beləliklə, I Tənliyi (bərabərlik) meydana çıxır:

$$G \times C = S \qquad (4)$$

$$\text{где } G = \frac{\Delta Y}{Y}, \; S = \frac{S}{Y} \text{ и } C = \frac{I}{\Delta Y} \qquad (5)$$

G –innovasiya gəlirinin artım tempidir; S-milli gəlirdə yığımın payıdır; C-kapitaltutumluğudur (kapitalverimliyin geri qayıtması).

Tənlik II (keynsçi istehsalda iqtisadi artım);

$$G \times Cr = S, \qquad (6)$$

Burada S keçmiş zaman dövrünə aiddir, Gw x Cr — dinamik tarazlıq üçün ölçü həcmləridir:

Cr — kapital əmsalının (kapitaltutumluğun) tələb olunan həcm ölçüsüdür,

$G_w$—zəruri, daha doğrusu təminat verilmiş artım tempidir, faktiki yığımla ehtimal edilən investisiyalar arasında dinamik tarazlığı təmin edir.

Keynsçilər hesab edirlər ki, bazar iqtisadiyyatı ölkələrində daimi təminatlı iqtisadi artım tempinə mexaniki olaraq nail olunmur və onlar belə bir qənaətə gəlmişlər ki, dinamik tarazlığa nail olmaq üçün iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi tələb olunur.

İqtisadi artımın modelləşdirilməsinə digər yanaşma qismində iqtisadi artımın neoklassik modelini göstərmək olar.

İqtisadi artımı araşdırarkən neoklassiklər aşağıdakı müddəalara əsaslanırlar:

- birincisi məhsulun qiyməti bütün istehsal amilləri tərəfindən yaradılır;

-ikincisi istehsalın istənilən amili məhsulun qiymətinin yaranmasına bütün son məhsullara uyğun öz töhfəsini verir, həmin son məhsula uyğun mənfəət əldə edilir;

-üçüncüsü, məhsul buraxılışı və resurslar arasında, həmçinin resursların özləri arasında birbaşa kəmiyyət asılılığı vardır;

-dördüncüsü, müstəqil istehsal amillərinin mövcudluğu və onların bir-birini əvəz edə bilməsi də diqqəti cəlb edir.

Neoklassiklərin modeli bir amilli keynsçi modeldən fərqli olaraq çox amilli hesab olunur.

Elmi Texniki İnqilab iqtisadi artım nəzəriyyəsi sahəsində yeni araşdırmaların aparılmasına güclü təkan vermişdir. İntensiv iqtisadi artım tipinə keçdi ETİ-nin, həmçinin iqtisadi artımın keyfiyyəti və tempinin nəzəri cəhətdən araşdırılmasını tələb etdi.

Bu təzahürləri araşdıran neokeynsçi model artıq hər kəsə məlum Kobb-Duqlasın istehsal funksiyasına əsaslanır. Hələ 1928-ci ildə amerika alimiləri iqtisadçı P.Duqlas və riyaziyyatçı Ç.Kobb makroiqtisadi modeli formalaşdırdılar [4,s.248].

Bu model istehsalın həcminə ayrı-ayrı amillərin təsirini, həmçinin dövlət gəlirini hesablamağa imkan yaradır [2, s 125].

Kapitala sərf edilən xərclərin 1% artması istehsal həcminin dörddə bir və ya 0,25% artmasına; əmək məsrəflərinin 1% artması məhsul buraxılışının dörddə üç və yaxud 0,75% artmasına səbəb olur. Xatırlatmaq lazımdır ki, elastiklik anlayışı bir ölçünün digər həcmlərdəki dəyişikliklərə reaksiyanı özündə əks etdirir.

A əmsalında hansı faizlərdə istehsalın həcminin dəyişilməsi (dövlət gəlirləri) özünü büruzə verir. Pul xərclərinin 1% artması zamanı, bununla əlaqədar hansı faizlərdə gəlir artımı baş verməsi əmsalda öz əksini tapır.

Məbləğdən görünür ki, istehsalın həcmi və dövlət gəlirləri eyni zamanda K və L amillərinin 1% artması zamanı nə qədər yüksəlir.

Əgər $\alpha + \beta$= 1 (Kobb və Duqlasın hazırladığı modeldən görünür) bərabərdir 1) bu isə o deməkdir ki, K və L-in 1% artması Y-nin də 1% artmasına səbəb olur (masştabın daimi effektləri). Digər situasiyalar da ola bilər: $\alpha + \beta$. Belə olan hallarda masştablardan asılı olaraq amillər verimliyinin artması və azalmasına diqqət yetirilməsi tələb olunur.

Kobba-Duqlasın istehsal funksiyasının nəticəsində yeni amilin daxil edilməsi ilə növ dəyişikliyi baş verdi, söhbət texniki tərəqqidən gedir.

İlk dəfə olaraq (1942) ETT-nin iqtisadi artıma təsirinin nəzərə alınmasına cəhd göstərildi. Holland iqtisadçısı, Nobel mükafatı laureatı Yan Tinbergen formulda yeniliklər etdi [3, s.125- 136]. Onun şərhində formul aşağıdakı kimi ifadə olunurdu:

$$Y=a_1 * Ka_2 * L(1-a_2)* e_{rt} \quad (7)$$

Burada Y – istehsalın həcmi, K-kapitalın həcmi, L-əmək məsrəflərinin həcmi, $a_1$ — proporsionallıq əmsalı və texnoloji məhsuldarlıqdır; $a_2$ , $a_3$ — kapital və əmək məsrəfləri üzrə əmtəə istehsalının elastiklik əmsalıdır (burada a2 0-dan 1 arasında dəyişilir), $e_{rt}$ — zaman amilidir, ETT-dən asılı olaraq məhsul buraxılışının elastiklik əmsalıdır.

Y.Tinbergenin modelində funksiyanın loqarifmik differensiallaşdırılması illik artım tempinin idarə edilməsinə imkan yaradır:

$$Y= A*k + (L- a) *1+e_{rt}, \quad (8)$$

burada Y— məhsulun artım tempidir, A-kapital məsrəfləri üzrə məhsul buraxılışının elastikliyidir, a-əmək məsrəfləri üzrə məhsul buraxılışının elastikliyidir, k-kapital artımı tempidir, L-əmək məsrəfləri tempidir, Ert— texniki tərəqqiyə əsaslanan artımdır.

Beləliklə, kapital, əmək məsrəflərinin artması və bununla bağlı keyfiyyət dəyişikliklərin baş verməsi ilə milli gəlirin həcmi arta bilər: əmək fəaliyyət ilə məşğul olanların ixtisas hazırlığı səviyyəsi yüksəlir, bütünlükdə cəmiyyət səviyyəsində təhsil səviyyəsi yüksəlir və s.

**Nəticə**

Apardığımız tədqiqat nəticəsindən belə nəticəyə gələ bilərik ki, müasir iqtisadi elmdə iqtisadi artımın modeləşməsi prosesində üstünlük liberal artıma verilir. Elmi məlumatların və ədəbiyyatların təhlili aparıcı ölkələrin müasir iq-

tisadi artım modellərinin ümumi xüsusiyyətlərini aşağıdakı kimi qruplaşdırmağa imkan verdi:

1. ÜDM-in strukturunda xidmət sahəsi üstünlük təşkil edir (təqribən 60-70%);
2. ÜDM-in tərkibində dövlət büdcəsinin yüksək olması (40-50% ətrafında);
3. İqtisadiyyatın sosial yönümlüyün prioritet olunması ( yüksək əmək haqları bir çox Avropa ölkələrin məhsul və xidmətlərin rəqabətqabiliyyətinə mənfi təsir edir)
4. Xarici investisiyaların həcminin aşağı olması;
5. Milli iqtisadiyyatların dünya təsərrüfatına sıx inteqrasiyası ( dünya ticarətində ixrac-idxal əməliyyatların ümumi həcmin 8-10% -ə qədər olması);
6. Ziyanlı işləyən iqtisadi subyektlərin dövlət tərəfindən geniş miqyaslı maliyyə dəstəyi;
7. Milli maliyyə kapitalın az inkişaf etmiş ölkələrə intensiv axını ( həmin ölkələrdə ucuz iş qüvvəsinin olduğuna görə);
8. İşsizliyin yüksək olması ( bir çox aparıcı ölkələrdə müasir şəraitdə işsizlik 6-8% arasındadır).

## ƏDƏBİYYAT


1. Факторы экономического роста: научно-технический прогресс: Монография / Пономарева Е.А., Божечкова А.В., Кнобель А.Ю. - М.:ИД Дело РАНХиГС, 2012. - 186 с
2. Douglas, Paul H. 1976. The Cobb-Douglas Production Function Once Again: Its History, Its Testing, and Some New Empirical Values. Journal of Political Economy, 84.5: 903-15
3. Jan Tinbergenan, Hendricus C. Bos. Mathematical Models for Economic Growth, New York: McGraw-Hill Publishing Co., 1962. Pp.125- 136.
4. Олсон, М. Возвышение и упадок народов. Экономический рост, стагфляция и социальный склероз / М. Олсон; пер. с англ. В. Бусыгин. Москва: Новое издательство, 2013, 324 с.
5. Замараев Б., Киюцевская А. Российская экономика в контексте мировых трендов // Вопросы экономики. 2015. № 2. С. 32-48.


## РЕЗЮМЕ

**КЕНУЛЬ АЛИЕВА**

**СОВРЕМЕННЫЕ МОДЕЛИ ЭКОНОМИЧЕСКОГО РОСТА**

В статье говорится о содержании экономического роста в современных условиях. Вместе с тем, автор проводит анализ основных моделей экономического роста и выделяет их особенности. В статье проводится сравнительный анализ теоретических подходов к данному вопросу и классифицируются типы экономического роста. В конце статьи автор приводит свои обобщенные выводы по изучаемой теме.

**Ключевые слова:** экономический рост, содержание, тенденции, модели, государственное регулирование.

**SUMMARY**



**KONUL ALIYEVA**

**ECONOMIC GROWTH AND ITS MODERN MODELS**

In the article the content of economic growth in modern conditions has been investigated. At the same time, the author carries out the analysis of the main models of economic growth and allocates them to feature. In the article the comparative analysis of theoretical approaches to the matter is carried out and types of economic growth are classified. At the end of article, the author gives the generalized conclusions on the studied subject.

**Keywords:** economic growth, contents, trends, models, state regulation

*(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov tərəfindən təqdim edilmişdir)*